
SƏMAVİ
HƏDİYYƏLƏR
6-cı kitab

بسم الله الرحمن الرحيم

Bismillahir Rəhmanir Rəhim

# Səmavi hədiyyələr

İslam təlim-tərbiyəsi

## Altıncı kitab

مَنْ عَمِلَ صَالِحًا مِنْ ذَكَرٍ أَوْ أُنْثَىٰ وَهُوَ مُؤْمِنٌ
فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُمْ بِأَحْسَنِ مَا كَانُوا يَعْمَلُونَ

**“Mömin olub yaxşı işlər görən (Allaha itaət edən) kişi və qadına (dünyada və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri ən yaxşı əməllərə görə mükafatlarını verəcəyik”.**

(Qurani-Kərim, Nəhl surəsi, 97-ci ayə)

Uca Yaradanımız tərəfindən həzrət Muhəmməd Peyğəmbərə (s) göndərilmiş İslam dini özündə etiqadlar, əxlaq, şəriət hökmləri və qayda-qanunları ehtiva edir. İnsan gözəl həyat yaşayıb Allaha yaxınlaşmaq üçün məhz bunlara ehtiyac duyur. İslam təlimlərinin əsas mənbəyi Quran, həzrət Peyğəmbərin (s) və onun həqiqi davamçıları sayılan məsum İmamların (ə) sünnəsi və sağlam ağıla əsaslanır. Bunu nəzərə alaraq, İslam maarifini öyrənmək hər bir müsəlman üçün zəruridir.

Əlinizdə olan bu kitabın hazırlanmasında başlıca məqsəd yeniyetmələrin müqəddəs İslam təlimləri əsasında ağıl, iman, elm, əməl və əxlaq baxımından düzgün şəkildə yetişdirilməsidir. Belə ki, bunun sayəsində onlar öz mövqelərini həm özlərinə, həm Allaha, həm bəndələrə, həm də yaradılışa qarşı düzgün şəkildə anlayıb cəmiyyətdə fərdi, o cümlədən ictimai mövqe nümayiş etdirməyi bacarsınlar.

Uca Allahdan dini vəzifələrin yerinə yetirilməsində hamıya uğurlar arzu edirəm.

**Professor Ərafi**

## Bismillahir Rəhmanir Rəhim

**Bağışlayan və mehriban Allahın adı ilə.**
**O, insana Quranı, öyrətdi. Həqiqət axtarmaq nemətini**
**və Özünü tanımaq nemətini bəxş etdi.**

O Allahın adı ilə ki, həqiqətarama, öyrənmə və özünütanıma kimi bir neməti bizə təqdim etmişdir. Həmçinin İslamı təlim və tərbiyə sahəsində müdirlər, müəllimlər, şagirdlər və valideynlərinə xidmət göstərmək nemətini bizə nəsib etmişdir.

Bu kitabın ərsəyə gəlməsinin əsas qayəsi böyük alimlərin rəhbərliyi altında təhsil standartlarını təmin etməklə yanaşı, İslam məktəbləri üçün əhatəli təlim proqramını təmin etməkdir.

Onun perspektivası İslami təlim və tərbiyəyə giriş sahəsində bü günkü nəslin inkişafı, kamiliyyə doğru hərəkəti və gələcək üçün qərarverici qabiliyyətə malik olması istiqamətində müəllim, valideyn və şagirdlərlə birgə işləməkdir.

Əziz oxucular, bu kitabın ərsəyə gəlməsində əsas məqsəd cəmiyyətin ilkin dini biliklərlə tanış olması və İslami təhsil ocaqlarının təlim və təhsil fənn və sahələri ilə tanışlıqdır. Eyni zamanda bizim digər amal və məqsədimiz aşağıdakılardan ibarətdir:

Məktəblərdə İslam təhsili üçün aydın və etik hədəfin müəyyən edilməsi;

Təxəssüs və təcrübə resurslarının mübadiləsi üçün geniş bir şəbəkənin təqdim edilməsi;

Mənəvi, fiziki, emosional və mental dirçəlişə hərtərəfli yanaşmanın təşviq edilməsi;

Düzgün İslami bilik və interaktiv metodologiya əsasında kadr və müəllim hazırlığının təmin olunması;

Tədqiqatçılar, hövzə və seminariya mərkəzləri ilə ünsiyyətin yaradılması;

İslami təlim və təhsil üçün kursların tərtibatı, məzmunu, metodları və dəyərləndirmə sistemi üçün güclü zəminin yaradılması.

Bu kolleksiyanın əsas hədəfi İslam təlimini ehtiva edən mükəmməl dizaynlı kitablar toplusunu təqdim etməkdir. Allaha şükürlər olsun ki, bir qrup mütəxəssislərin əməkdaşlığı ilə belə böyük bir əsər ərsəyə gəlib.

Bu dərsliklər silsiləsi dolayı və cəlbedici üsullardan istifadə etməklə, əsasən İslam təlim və gündəlik məktəb proqramının metoduna uyğun olaraq tərtib edilmişdir. Elmi vəsait, mötəbər İslam mənbələrinə əsaslanaraq ümumi əqidə, əxlaq və əhkam əsaslarının öyrədilməsi üçün təlif edilib.

Bu kolleksiya əsasən İslam perspektivinin əsas prinsiplərinə - rasionallıq, mənəviyyat, mötədillik, ədalət və sülhə əsaslanır.

Yeri gəlmişkən bu böyük layihədə əməkdaşlıq edən bütün mütəxəssislərə, xüsusən də professor Ərafi, cənab İmanipur və cənab Fəyaziyə təşəkkür edir, minnətdarlığımızı bildiririk.

**Gürcüstan Müsəlmanları İdarəsi**

# Mündəricat




Birinci dərs: Yalnız O! ..............................7



İkinci dərs: Yalnız Sənə ibadət edirik...10



Üçüncü dərs: Başqa bir dünya................14



Dördüncü dərs: O böyük günü xatırla.......18



Beşinci dərs: Azadələr sərvəri.................22



Altıncı dərs: Yaxşıların siması................26



Yeddinci dərs: Qeybət dövrü..................32



Səkkizinci dərs: Həyat tərzi........34



Doqquzuncu dərs: Sağlamlıq yolu...........38



Onuncu dərs: Böyük mükafat........42



On birinci dərs: Səfərin hökmləri............46



On ikinci dərs: Müsəlmanların bayramı.....50



On üçüncü dərs: Uğur sirri......................52



On dördüncü dərs: Ziyarət .......54



On beşinci dərs: Nümunəvi şagird...........59

# Hörmətli həmkarım, əziz müəllim!

## Salam!

Tədrisin daha effektiv və əhatəli olması üçün aşağıda qeyd etdiyimiz bəndləri sizin diqqətinizə çatdırırıq:
1. Əlinizdə olan kitabı tədris etmək üçün "Müəllim kitabı"na müraciət etmək zəruridir. Tədris metodunun bir hissəsi müəllimlər üçün nəzərdə tutulan kitabda qeyd edilib. Bu kitaba müraciət etmədən tədris istənilən nəticəni verməyəcək.
2. Dərslərlə bağlı fəaliyyətlər elə dərslik kitablarının özündə yer alır və ayrıca bir "İş dəftəri" nəzərdə tutulmayıb. Bu səbəbdən, bütün dərslərin tədrisi (xüsusilə tapşırıqların icrası) sinifdə yerinə yetirilməlidir.
3. Dərslik kitabında yer alan illüstrasiyaların əhəmiyyətini və dərsin hədəflərinə uyğun olduğunu nəzərə alaraq, hörmətli həmkarlardan xahiş olunur ki, dərsləri başa salma mərhələsində illüstrasiya üzərində iş aparma və şəkillər əsasında tədris metodundan istifadə etsinlər.
4. Əlinizdə olan kitabın məzmunu əvvəlki illərin dərsliklərinə nisbətdə daha da zənginləşdirilib və buraya bir sıra dəyişikliklər əlavə olunub. Şagirdlərin yaşını nəzərə alaraq, burada təqdim edilən ədəbiyyat uşaqlara daha açıq, daha dolğun şəkildə çatdırılıb.
5. Dərsin hədəflərinə daha gözəl şəkildə nail olmaq məqsədilə bir çox Quran ayələrindən və hədislərdən istifadə olunub. Bununla da şagirdlərə tədricən dini hər bir xəta və səhvdən uzaq olan mötəbər mənbələrdən - Allahın buyruqlarından və Məsumların (ə) kəlamlarından – öyrənmələri aşılanır. Təqdim olunan ayələr və hədislər bir çox hallarda dərsin məzmununu xülasələşdirib mahiyyətini aydınlaşdırır. Dini bilgilər ana mənbələrin öz dili ilə şagirdlərə çatdırılır.
6. "Səmavi hədiyyələr" silsiləsinin altıncı kitabı üzrə qiymətləndirmə iki formada aparılır: Formativ qiymətləndirmə (bütün tədris prosesi boyunca şagirdlərin praktik və nəzəri bilikləri necə mənimsəməsi, habelə nailiyyətləri müşahidə edilir) və İllik qiymətləndirmə (tədris ilinin sonunda yazılı test imtahanı keçirilir).
Qiymətləndirmə metodları ilə tanış olmaq üçün "Müəllimin kitabı"na müraciət edə bilərsiniz.
7. Hər dərsdə elə hissələr yer alır ki, onlara xülasə şəklində işarə olunur. Hər hansı bir məsələni təfsilatı ilə öyrənmək üçün "Müəllim kitabı"na müraciət edə bilərsiniz.
Dərs başlığı: Dərs başlığı birbaşa və ya dolayısı şəkildə dərsin xülasəsini və əsas məzmununu əks etdirir. Həmçinin şagirdlərdə dərsə və onun mövzusuna qarşı maraq oyadır.
**Giriş:** Bu qisim bir çox dərslərin əvvəlində yer alaraq şagirdləri dərsin əsas hissəsinə qoşulmağa hazırlayır və həvəsləndirir. Həmçinin bəzi hallarda şagirdlərin dərsin hədəfi barədəki baza biliklərini ortaya çıxarıb qiymətləndirən amil qismində çıxış edir.
**Dərsin mətni və əsas hissəsi:** Dərsin əsas hədəfləri və mətləbləri bu hissədə bəyan olunur.
Daha çox öyrənək: Bu bölmə dərsin əsas məzmununu qüvvətləndirmək və təkmilləşdirmək məqsədilə bəzi dərslərin sonunda yer alır. Qeyd edək ki, bu mətnlər şagirdlərin biliyinin artırılması üçün nəzərdə tutulub və qiymətləndirmədə rol oynamır.
**Bax və söylə:** Bu başlıq altında olan fəaliyyət şagirdlərin dərsi daha dərindən qavramaları üçün əyani olaraq illüstrasiyalara baxmaqla həyata keçirilir.
**Düşün və de:** Bu fəaliyyət fikrin toplanması, düşünmək üçün nəzərdə tutulub və şagirdlər tərəfindən fərdi olaraq həyata keçirilir.
**Müzakirə edin:** Bu bölmədə şagirdlər müəllimin nəzarəti və köməyi ilə verilən suallara cavab verir. Müəllim cavabları təkmilləşdirərək şagirdlərə fikri tamamlamağa kömək edir. Həmçinin, şagird əldə etdiyi dini bilikləri müəllimin nəzarəti altında bütün sinif yoldaşları qarşısında nümayiş etdirir və yeni dini bilgilərə nə qədər yiyələndiyi ortaya çıxmış olur.
**Səhnələşdirin:** Bəzi dərslərin mövzuları sinifdə səhnələşdirərək nümayiş olunur. Dərsin daha maraqlı keçməsi və şagirdləri həvəsləndirmək məqsədilə müəllimlər tamaşanın təşkilində müxtəlif əyani vəsaitlərdən istifadə edə bilərlər. Bu bölmədə şagirdlər nəzəri biliklərini təcrübi yolla tətbiq etmək fürsətini əldə edirlər.
**Araşdırın:** Bu bölmə şagirdlərə sinifdən kənarda müəyyən fəaliyyətlərlə məşğul olmaq imkanını yaradır. Həmçinin, bu bölmənin hədəfi şagirdlərə əyani olaraq araşdırma aparmaq qabiliyyətini aşılamaq və biliklərini artırmaqdır.
Xatirə danışmaq: Bu hissədə şagird gündəlik yaşayışı ilə öyrəndiyi dərslər arasında rabitə yaratmağa çalışır.
**Tamamlayın:** Bu bölmə dərsin məfhumları arasında rabitə quraraq dərsin hədəflərini müəyyən etməyə xidmət edir.
**Ailə ilə birlikdə:** Bu ad altındakı bölmə şagirdlərin ailə daxilində dini baxışlarının əhatəli və daha dərin formalaşması, habelə yeni rəftarların əldə olunması üçün nəzərdə tutulub. Bu işdə valideynlərin də yaxından iştirak etməsi olduqca əhəmiyyətlidir. Şagirdələrin bütün dərsləri ardıcıl olaraq izləmələri və öyrənmələri çox vacibdir. Əgər hansısa dərs buraxılsa, növbəti dərsin öyrənilməsi zamanı buraxılan dərsə mütləq yenidən qayıtmaq lazımdır.

Birinci dərs

# Yalnız O!

Bizi əhatə edən dünyadakı nizam-intizam nəyin əlamətidir?

## Möcüzəvi uyğunluq

İndiyədək bir buğda dənəsinin cücərməsi və inkişafı barədə düşünmüsünüzmü?

Bir buğda dənəsi torpağa basdırıldıqda ona lazım olan qida əvvəlcədən torpaqda hazırdır. Buğda dənəsi inkişaf etmək üçün suya da möhtacdır. Ona lazım olan su dənizlərin üzərindən buludlar vasitəsilə zəmiyə tərəf gəlir və yağış formasında yerə yağır. Buğda dənəsinin inkişaf etməsi üçün işıq və istilik də olmalıdır, bunu da Günəş təmin edir.

Maraqlıdır ki, Günəşlə Yer kürəsi arasında məsafə dəqiq hesablanmışdır. Əgər Yerlə Günəşin arasındakı məsafə çox uzaq olsaydı, bitkilər soyuğa görə məhv olardı. Əksinə bu məsafə çox az olsaydı, kəskin istidən yanıb kül olardı.

Gördüyümüz kimi, bir buğda dənəsinin cücərməsi və böyüməsi üçün torpaq, Günəş, külək və yağış arasında necə möcüzəvi bir uyğunluq vardır. Bu dünyada olan istənilən hadisə barədə düşünsəniz, bu uyğunluğu və nizamı görə bilərsiniz.



Sizcə, dünyanı iki və daha artıq Allah idarə etsəydi, bu uyğunluq və nizam meydana gələrdimi? Qurani-Kərim buyurur:

لَوكانَ فيهِما ءالِهَةٌ اِلَّا اللّهُ لَفَسَدَتا

"Əgər göydə və yerdə Allahdan başqa tanrılar olsaydı, dağılıb məhv olardılar (dünyanın nizam-intizamı bir-birinə dəyərdi)".

Ənbiya surəsi, 22-ci ayə.

Fərz edin ki, dünyanı iki Allah idarə etmək istəyər! Biri Günəşi şərqdən, digəri isə qərbdən doğdurmaq qərarına gələr.

Biri insan üçün iki əl, o biri isə üç əl yaratmaq istəyər. Biri ildə on iki ay olmasını istəyər, digəri isə üç ay da ona əlavə edər! Dünyada hadisələr və varlıqlar arasındakı nizam-intizam, uyğunluq onu göstərir ki, bu aləmi yalnız bir Allah idarə edir. Doğrudan da, əgər tək olan Allahdan başqa bir Allah da varsa, nə üçün özünü tanıtmaq üçün bir nəfər də bizə göndərməyib?!



İmam Əli (ə) bu haqda övladı İmam Həsənə (ə) belə buyurur:

"Əziz övladım! Bil ki, əgər sənin Rəbbinin şəriki olsaydı, onun da peyğəmbərləri sənin yanına gələrdilər".

(Nəhcül-bəlağə, 31-ci məktub)

## Bax və söylə

Diqqətlə bu şəkillərə baxın. Bu varlıqların onları əhatə edən mühitlə hansı rabitəsi var?





## Müzakirə edin

Sizcə, aşağıdakı hallarda hansı problemlər yarana bilər?

- Bir məktəbin iki müdiri olsa....................................
- Bir idman komandasının iki məşqçisi olsa.................
- Bir ordunun iki komandanı olsa...............................

## Ailə ilə birlikdə

Ailə üzvlərinizin köməyi ilə yaradılış aləmində olan nizam-intizama uyğunluğa aid başqa bir nümunəni yazın və onu sinifdə dostlarınız üçün oxuyun.

İkinci dərs

# Yalnız Sənə ibadət edirik

Məkkə müşrikləri güman etmirdilər ki, kimsə onun sözlərinə inanıb iman gətirər, onun ardıcılları isə günbəgün artırdı. Onlar İslamın inkişaf etməsinin qarşısını almaq üçün hər işə əl atırdılar, lakin ən ağır işgəncələr və əzablar da həzrət Muhəmmədin (s) ardıcıllarını onu dəstəkləmələrinə mane ola bilmədi. Qureyş böyükləri bu məsələni müzakirə etmək üçün bir yerə toplaşdılar. Bu məşvərət iclasında müxtəlif təkliflər irəli sürüldü, lakin heç biri qəbul olunmadı.

Sonda bir nəfərin təklifini hamı bəyəndi: “Təklif edirəm ki, biz Muhəmmədə belə deyək: "Biz sənin dediklərini qəbul etməyə hazırıq, bir şərtlə ki, sən də bizim dinimizi qəbul et. Bu halda sən də Qureyş böyüklərindən biri olub bütün imtiyazlardan və səlahiyyətlərdən istifadə etmək hüququna malik olarsan. Bir il sən bizim allahlarımıza pərəstiş et, növbəti il də biz sənin Allahına ibadət edərik”.

Qureyş başçıları öz təkliflərini Allahın rəsuluna (s) bildirdilər. Lakin bir an belə daş və taxta bütlər qarşısında baş əymək istəməyən Peyğəmbər (s) belə buyurdu: “Bir şeyi Ona bənzətməkdən Allaha sığınıram!”

Bu hadisədən sonra həzrətə “Kafirun” surəsi nazil oldu. Allahın Rəsulu (s) Məscidul-hərama gəldi, uca bir yerdə dayanıb bu ayələri Qureyş böyükləri üçün oxudu:

| | |
|---|---|
| Rəhman və Rəhim Allahın adı ilə! | بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحيمِ |
| 1. De: “Ey kafirlər! | قُلْ يٰاَيُّهَا الْكافِرونَ |
| 2. Mən sizin ibadət etdiyinizə ibadət etmərəm! | لا اَعْبُدُ ما تَعْبُدونَ |
| 3. Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz! | وَ لا اَنْتُمْ عابِدونَ ما اَعْبُدُ |
| 4. Mən sizin ibadət etdiyinizə ibadət edən deyiləm! | وَ لا اَنَا عابِدٌ ما عَبَدْتُمْ |
| 5. Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz! | وَ لا اَنْتُمْ عابِدونَ ما اَعْبُدُ |

6. Sizin dininiz sizə, mənim dinim də mənə məxsusdur! لَكُمْ دينُكُمْ وَ لِيَ دين

(Kafirun surəsi, 1-6-cı ayələr)



## Allahpərəstlərin atası

Həzrət İbrahim (ə) insanları allahpərəstliyə dəvət etmək üçün çox çalışdı. Allah Quranda onu möminlərin və allahpərəstlərin atası adlandırıb.[1]

O, cavanlıqdan bütpərəstliklə mübarizə aparır və öz qövmünə deyirdi: "Bu cansız bütlərə pərəstiş etməyin sizə nə faydası var? Öz əllərinizlə düzəltdiyiniz bütlərə səcdə etməyiniz məntiqlidirmi?" Lakin İbrahimin tayfası onun sözlərinə fikir vermir və ciddiyə almırdılar.

Günlər keçdi və bir gün bütpərəstlərin hər il keçirdikləri bayram yetişdi. Onlar bayramı qeyd etmək üçün şəhərdən kənara çıxdılar. Uzun müddətdən bəri bütlərin heç nəyə qadir olmadıqlarını insanlara göstərmək istəyən İbrahim (ə) Allahdan kömək diləyərək möhkəm addımlarla şəhərin bütxanasına getdi...

### Müzakirə edin

"İbrahim" surəsinin 32-ci ayəsinin tərcüməsi belədir:

**"Göyləri və yeri yaradan, göydən su endirən, o su ilə sizin üçün ruzi olaraq meyvələr yetişdirən ... Allahdır!"**

Bu ayəni nəzərə alaraq pərəstiş və ibadət olunmağa layiq olan kimdir? Nə üçün?

1. Həcc surəsi, 78-ci ayə.

## Səhnələşdirin

Ötən illərdə həzrət İbrahimin (ə) bütləri sındırması barədə oxuduğunuz hadisəni dostlarınız üçün danışın və onu sinifdə səhnələşdirin.

## Bax və söylə





Şəkillərdə əks onunan dastanlara diqqət yetirin və deyin: Kömək istəməyə Allahdan daha layiq olanı varmı? Nə üçün?

Üçüncü dərs

# Başqa bir dünya

Biz insanların öz həyatımızda hansı mərhələlərdən keçdiyimizi bilirsinizmi? Bu mərhələlər nə vaxta qədər davam edəcək?

Həyatın birinci mərhələsi ana qarnında keçirdiyimiz doqquz aylıq mərhələdir. İnkişafımız tamamlandıqda dünyaya gəlir və yeni mərhələyə başlayırıq. Bu yeni mərhələ uşaqlıq dövrüdür. Get-gedə böyüyüb inkişaf edirik və işlərimizi özümüz yerinə yetirməyi öyrənirik. Beləliklə, yeniyetməlik dövrünə daxil oluruq. Yeniyetməlik dövründən sonra gənclik dövrünə qədəm qoyuruq. Bu dövr ciddi işləmək və çalışmaq dövrüdür. Gənclik dövründə gələcək barədə daha çox düşünürük. Gənclik dövründən sonra növbə yetkinlik, ardından yaşlılıq çağı və sonda qocalıq dövrünə çatır.



Təbii olaraq hər birimiz bu dövləri keçirik və sonda bu dünyadakı həyatımız sona çatır.

Bizim həyatımız ölümlə bitirmi? Öldükdən sonra həyatda hansı yeni mərhələyə daxil oluruq?

**Üstün həyat**

Qurani-Kərim bu suala cavab verir və buyurur: Ölüm həyatın sonu deyil və biz ölümdən sonra bu dünyadan daha böyük və daha möcüzəvi bir dünyaya qədəm qoyuruq. Bizim əsas həyatımız o dünyada olacaq.

Dünya həyatı məhduddur və bir gün sona çatacaq, lakin axirət dünyasındakı həyat əbədi və daimidir. İnsanlara bu dünyada öz axirət dünyalarını abad etmək üçün fürsət verilir. İman gətirən və yaxşı işlər görən insanlar əbədi olaraq Cənnətdə, kafirlər və günahkarlar isə Cəhənnəm əzabında olacaqlar.

İslam Peyğəmbərinin (s) dövründə kafirlərdən biri çürük bir sümüyü həzrətin yanına gətirdi və bu sümüyü əlində ovub toza döndərdi. Sonra Peyğəmbərə dedi: "Ey Muhəmməd! Biz öldükdən və bir ovuc sümüyə çevrildikdən sonra yenidən diriləcəyikmi?!"

Allah Quranda bu hadisəni nəql edərək həmin şəxsə belə cavab verdi:

"Dedi: "Çürüdükləri halda bu sümükləri kim dirildər?" De: "Onları ilk dəfə yaradan Özü onları dirildəcəkdir".

(Yasin surəsi, 78-79-cu ayələr.)

Doğrudan da, Qiyamət gününə şübhə edənlər Allahın qüdrətini çox az hesab edirlər. Onlar təəccüblənirlər ki, Allah necə ölüləri yenidən dirildəcək və canlandıracaq? Allah bu şəxslərə cavab olaraq buyurur:

"(Ölümdən sonra) sizi yaratmaq daha çətindir, yaxud göyü (yaratmaq) ki, Allah onu yaratdı?"

(Naziat surəsi, 27-ci ayə)

## Müzakirə edin

Bir evi tikmək üçün mühəndis əvvəlcə plan hazırlamalıdır və bu plana əsasən tikinti materiallarını əldə edib evi tikməlidir. Əgər bu ev dağılsa və mühəndis evi yenidən əvvəlki formada tikmək istəsə, birinci dəfə tikmək çətin olar, yoxsa ikinci dəfə?

## Tamamlayın

Axirət həyatı dünya həyatından daha üstündür. Çünki :

1. ......................................................................

2. ......................................................................

3. ......................................................................

## Bax və söylə





إِذَا رَأَيْتُمُ الرَّبِيعَ فَاكْثِرُوا ذِكْرَ النُّشُورَ

"Bahar fəslini gördükdə Qiyamət haqqında çox danışın". Həzrət Muhəmməd peyğəmbər (s)

Bu kəlamı nəzərə alaraq, yuxarıdakı şəkilləri bir-birilə müqayisə edib öz mülahizələrinizi söyləyin.

Dördüncü dərs

# O böyük günü xatırla

Bir nəfər həzrət Peyğəmbərin (s) yanına gəlib ona Quran öyrətməsini istədi. Peyğəmbər (s) öz səhabələrindən birinə ona Quranı öyrətməyi tapşırdı. Həmin şəxs "Zəlzələ" surəsini öyrəndikdə onun son iki ayəsi barədə öz ustadına dedi: "Elə bu iki ayə mənə kifayətdir."



فَمَنْ يَعْمَلْ مِثْقالَ ذَرَّةٍ خَيْرًا يَرَه

وَ مَنْ يَعْمَلْ مِثْقالَ ذَرَّةٍ شَرًّا يَرَه

"Zərrə qədər yaxşılıq edən onu görəcəkdir. Zərrə qədər pislik edən onu görəcəkdir".

(Surah Al-Zalzalah: 7-8-ci ayələr)

Bu hadisəni Peyğəmbərə (s) danışdılar. Peyğəmbər (s) buyurdu: "Bu şəxs dini ən yaxşı şəkildə öyrənərək evinə dönmüşdür".

Sizcə, bu iki ayədə hansı məqamlar vardır ki, bu şəxs sözügedən ayələrin ona kifayət etdiyini deyirdi?



## Quran və Qiyamətin xatırlanması

Quranın bir çox ayələri Qiyamət barəsindədir. Müqəddəs kitabımız dəfələrlə bu böyük günü xatırladır və Qiyamət gününü insanların yadına salır. Bu əziz kitab bəzən Cənnət nemətlərini bəyan edir, bəzən də Cəhənnəm əzablarından söz açır. Bəzən Cəhənnəm əhli ilə Cənnət əhlinin söhbətinə işarə edir, bəzən də Qiyamətin müxtəlif mərhələlərini sadalayır. Bütün bunlar ona görədir ki, insanlar bu ayələri oxumaqla yaxşı işlər görməyə təşviq olunsunlar.

İnsanlar bir çox günahları məhz Qiyaməti unutduqlarına görə edirlər. Sizcə, kimsə Qiyaməti xatırlayarsa, rahat şəkildə yalan danışa və ya başqalarına zülm edə bilərmi? Əgər kimsə, doğrudan da Qiyamətə inanarsa, başqalarının malından onların icazəsi olmadan istifadə edərmi? Yoxsa əksinə, yaxşı işlər görməklə əbədi xoşbəxtliyə çatmaq və Qiyamət günü Cənnətə daxil olmaq istəyər?

### Düşün və söylə

Allah "Fatihə" surəsində Qiyaməti necə adlandırır?

### Müzakirə edin

Allaha və axirət dünyasına imanı olan şəxs öz sinif yoldaşları ilə necə rəftar edər?

## Quran oxuyaq

Aşağıda qeyd olunan ayələri tərcüməsi ilə birgə sinifdə oxuyun. Bu ayələrdəki mesajları müzakirə edin.

وُجوهٌ يَوْمَئِذٍ ناضِرَةٌ؛ إِلى ربِّها ناظِرَةٌ؛
وَ وُجوهٌ يَوْمَئِذٍ باسِرَةٌ؛ تَظُنُّ أَنْ يُفْعَلَ بِها فاقِرَةٌ

“O gün neçə-neçə üzlər sevinəcək  və öz Rəbblərinə baxacaq. O gün neçə-neçə üzlər də tutulub qaralacaq, çünki qarşıda bel sındıran bir əzab olduğunu biləcək”.

(Qiyamət surəsi, 22-25-ci ayələr.)

اَلْيَوْمَ تُجْزيٰ كُلُّ نَفْسٍ بِما كَسَبَتْ لا ظُلْمَ الْيَوْمَ إِنَّ اللَّهَ سَريعُ الْحِسابِ

“Bu gün hər bir kəs qazandığı əməlləri müqabilində cəzalandırılacaqdır. Bu gün haqsızlığa yol verilməyəcək. Allah sürətli haqq-hesab çəkəndir”.

(Ğafir surəsi, 17-ci ayə)

Beşinci dərs

# Azadələr sərvəri

Aşura gününün ikindi vaxtı idi. İmam Hüseynin (ə) bir çox dostları şəhid oldu.

İmam (ə) xeymələrin yanında oturub Yəzid ordusuna baxırdı. Tanış bir səs onun diqqətini çəkdi.

- Əmi, əmi!

Bu, qardaşının övladı Qasımın səsi idi.

- Əzizim, sözün var?

- Əmican, istəyirəm döyüş meydanına gedib Allahın dinini müdafiə etmək yolunda şəhid olum.

İmam ona baxdı. Yenicə on dörd yaşına qədəm qoymuş qardaşının yadigarını və əmanətini heç bir rəhmi olmayanlarla vuruşmaq üçün döyüş meydanına göndərmək ona çox ağır gəlirdi. İmamın gözləri yaşardı və sakitcə dedi:

- Xeyr, Qasımcan!

Qasım yenə israr etdi. Əmisinin əllərini tutub göz yaşı axıdırdı. O özünü Allah yolunda şəhid olmaq üçün hazırlamışdı. Çoxlu dirəndikdən sonra İmam (ə) ona döyüş icazəsi verdi. Qasım şücaətlə meydana daxil oldu.



Onun sakit, eyni zamanda əzmkar siması var idi, qılınc çalıb təkbir deyirdi.

Çox keçməmiş bu parlaq ulduz "Əmi" deyə-deyə yerə yıxıldı.

İmam Hüseyn (ə) Qasıma tərəf getdi. Gözlərindən yaş axırdı. O, mehribancasına və vəsfolunmaz ülfətlə buyurdu: "Allaha and olsun, əmin üçün çox çətindir ki, sən onu çağırasan və o sənə cavab verə bilməsin".

## İmam Hüseyn (ə) qiyamı

Həzrət Muhəmməd (s) Allah tərəfindən peyğəmbərliyə seçildikdən sonra Allahın əmrlərini qəbul etmək istəməyən zalım insanlar hər vasitə ilə İslam dinini məhv etməyə çalışırdılar.

Lakin Peyğəmbərin (s) müqaviməti və fəaliyyəti bu düşmənlərin öz istəklərinə çatmasına mane oldu.

Allah Rəsulndan (s) sonra Müaviyə Peyğəmbərin canişini olan İmam Əliyə (ə) qarşı müharibəyə başladı. İmam Əlidən (ə) sonra övladı İmam Həsən (ə) də Müaviyənin planı ilə şəhadətə çatdı.

Hicri-qəməri tarixinin 60-cı ilində Müaviyə dünyadan getdi və oğlu Yəzid hakimiyyətə gəldi. Yezid pis və günah işlərlə məşğul olurdu. Namaza əhəmiyyət vermir və dini hökmlərə əməl etmirdi. Aşkar şəkildə İslam dinini və həzrət Muhəmmədi (s) ələ salırdı.



Onun günah əməlləri insanlara da təsir edirdi. Yəzid İslam dininin kökünü kəsib onu məhv etmək istəyirdi.
İmam Hüseyn (ə) Yəzidin hakimiyyətə gəldiyini öyrəndikdə belə buyurdu:

"Vay olsun İslamın halına ki, Yəzid kimi bir hakimin əlinə düşüb!"

İmam Hüseyn (ə) Yəzidə qarşı qiyam qaldırdı, övladları və ailəsi ilə birlikdə Mədinədən çıxdı. O, camaatı Yəzidə qarşı mübarizəyə dəvət etdi və özünün qiyam qaldırmaqda məqsədini belə bəyan etdi:

"Mən babamın ümmətini islah etmək üçün qiyam etdim! Mən yaxşılığa dəvət və pislikdən çəkindirmə hökmünü yerinə yetirmək istəyirəm!"

Lakin ona çox az adam qoşuldu və kömək elədi. Sonda hicri-qəməri 61-ci ilin Məhərrəm ayının 10-da İmam Hüseyn (ə) və onun 72 tərəfdarı Kərbəla səhrasında şəhid edildilər.
İmam Hüseynin (ə) şəhadətindən sonra insanlar qəflət yuxusundan oyandılar və İmamın (ə) qiyamından ilhamlanaraq Yezidə qarşı qalxdılar.

## Müzakirə edin

Siz bir müsəlman yeniyetmə olaraq İmam Hüseynin (ə) adını əbədiləşdirmək üçün nə edirsiniz?

## Araşdırın

Kərbəla hadisəsində iştirak edən digər uşaqlar və yeniyetmələr barəsində araşdırma aparın və onu sinifdəki dostlarınız üçün oxuyun.

## Müzakirə edin

İmam Hüseyn (ə) buyurur:
"Mənim kimisi heç vaxt Yəzid kimisinə beyyət etməz (tabe olmaz)!"

Sizcə bu cümlənin dərsin mövzusu ilə rabitəsi nədir?

## Xatirə danışmaq

Məhərrəm ayında iştirak etdiyiniz əzadarlıq mərasimləri barədə xatirələrinizi sinifdə dostlarınız üçün danışın.

# Yaxşıların siması

Uzun illər İmam Kazimin (ə) tarlasında işləməyi arzu edir. O bilirdi ki, İmam əkinçilikdən əldə etdiyi gəliri yoxsullara paylayırdı.

Nahar vaxtı böyük bir süfrə açıldı və bütün işçilər onun ətrafında oturdular. Lakin kimsə əlini yeməyə uzatmırdı. Sanki kimisə gözləyirdilər. Bir az keçdikdən sonra İmam (ə) gülərüzlə salam verib onlara qoşuldu və süfrənin bir küncündə oturdu.

İnana bilmirdi! İmam öz işçiləri ilə bir süfrə arxasındamı oturur?

Həzrət Allahın adını dilinə gətirdi və hamı yeməyə başladı. Yeməkdən sonra İmam Allaha şükür etdi və sonra üzünü işçilərə tutub buyurdu: "Bir az oturun, bir müşkül yaranıb, onunla bağlı sizinlə məsləhətləşmək istəyirəm".



O, üzünü İmama (ə) tutub soruşdu: "Siz bu qədər elm və məqamınızla bizimlə məsləhətləşmək istəyirsiniz?!"

İmam Kazim (ə) şəfqətlə ona baxıb buyurdu: "Bəlkə Allah sizin zehninizə elə bir şey salar ki, bu müşkülün həlli onda olacaq".

Bu rəftar onun İmama olan eşq və bağlılığını artırdı. İndi Allahın onu müsəlmanlar üçün imam və rəhbər seçməsinin səbəbini anladı.

***

Sizcə İmamlar (ə) hansı xüsusiyyətlərinə görə Allah tərəfindən bizə rəhbər təyin olunublar?

## Quranda Əhli-beyt

Quran insanları doğru yola yönəldən və hidayət edən kitabdır və Hidayət etməyin ən yaxşı yolu ali meyarları və nümunəvi insanları tanıtmaqdır. Quran ayələrinin birində oxuyuruq:

اِنَّما يُريدُ اللّٰهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ اَهْلَ الْبَيْتِ وَ يُطَهِّرَكُمْ تَطْهيرًا

"Allah günah və çirkinliyi siz Əhli-beytdən uzaqlaşdırmaq və sizi tamamilə tərtəmiz etmək istəyir".

(Əhzab surəsi, 33-cü ayə)

Əhli-beytin (ə) həyatına nəzər saldıqda anlaya bilərik ki, nə üçün Quranda bu ali şəxsiyyətlər mədh olunur.

Onlar mehriban və xoşəxlaq olublar. Başqalarının səhvlərini rahatlıqla bağışlayar, kimsəyə qarşı kin saxlamazdılar. İnsanların

səhvlərini üzünə deməz və onları məzəmmət etməzdilər. Kimsənin qüsur və eybindən xəbərdar olduqda onu gizlədərdilər.

Həzrət Muhəmməd Peyğəmbərlə (s) qohum olduqlarına görə fəxr etmirdilər. İmam Səccad (ə) səfərlərdə Peyğəmbərlə (s) qohumluğunu gizlədirdi ki, həmsəfərləri zəhmətə düşməsinlər və onu müsafirlərə xidmət etməkdən məhrum etməsinlər.

Onlar öz zəmanələrinin zalımları ilə mübarizə aparıb və hamısı bu yolda şəhid edilib.

Əhdlərinə vəfalı idilər, söz verdikdə əməl edirdilər. Əmanəti olduğu kimi sahibinə qaytarırdılar.

Başqalarına yaxşılıq edir, lakin minnət qoymurdular. Kiçik, dəyərsiz hədiyyələri də qəbul edib onun əvəzini verirdilər.

Heç kəslə məğrurcasına danışmır və heç vaxt təkəbbürlə addımlamırdılar. Kimsəni söyməz və pis, bəyənilməyən ləqəblə çağırmazdılar. Başqalarının arxasından danışmazdılar və kimsə onların yanında qeybət etsəydi, bunun qarşısını alardılar. Heç vaxt kimsəni ələ salmazdılar. Qədərində danışar və kimsənin sözünü kəsməzdilər. Zarafat edərdilər, lakin əndazəni aşmırdılar və zarafat bəhanəsi ilə kimsəni incitmirdilər.

Çox qonaqpərvər idilər. Evlərinə qonaq gəldikdə onları ən gözəl şəkildə qarşılayardılar. Xəstələrə baş çəkməyə gedər və xoş sözlərlə onlara ümid verərdilər.

Uşaqları sevər və onlara qarşı şəfqətli idilər. Ən yoxsul şəxs belə onları görməyə gəlsəydi, onu hörmətlə qarşılayar və yola salardılar. Kimsə onları evlərinə dəvət etsəydi, dəvətini qəbul edərdilər. Çox səxavətli və bəxşiş verən idilər. Gecələr gizlicə yoxsul məhəllələrə gedər və ehtiyaclılara yemək və çörək paylayardılar. Qonşuları incitmir, əksinə bacardıqca onlara yaxşılıq edərdilər. Heyvanlara

qarşı xoşrəftar idilər və onlara su, yemək verməklə əllərindən gələni əsirgəməzdilər.

Ailə üzvləri ilə mehriban davranar və ata-analarına çox hörmət edərdilər.

Lazımi qədər yemək yeyərdilər. Səbirli və sakit idilər, heç bir işdə tələsməzdilər. Daim təmiz və səliqəli olardılar. Saçlarını darayar, dişlərini təmizləyər və daim ətirlənərdilər.

Çalışqan və zəhmətkeş idilər. Bütün insanlar kimi işləyər və öz zəhmətləri ilə dolanardılar.

Nemətləri heç vaxt israf etməz və bada verməzdilər. Çörəyə dəyər verər, hətta onun kiçik tikələrini də atmazdılar.

Allaha ibadət etməyə aşiq idilər, namaza çox əhəmiyyət verərdilər və həmişə vaxtında qılardılar.

***

Oxuduqlarınız bizim din rəhbərlərimizin bəyənilən rəftarlarının və gözəl sifətlərinin yalnız bir hissəsi idi. Bu haqda çoxlu sözlər deyilib və nəql olunub.

## Müzakirə edin

Aşağıdakı hallarda necə rəftar etmək lazımdır?
- Kimsə sizi məsxərə edir və ya söyür;
- Oyun zamanı dostlarınızla toqquşub yerə yıxılırsız;
- Sizin yanınızda başqaları haqqında pis sözlər deyilir;
- Yolunuzun üstündə bir tikə çörək yerə düşüb.

## Təklif

Şəhid Mürtaza Mütəhhərinin "Doğruların dastanı" kitabından İmamların (ə) həyatına aid olan hekayələri seçin və sinifdə dostlarınız üçün oxuyun.

## Divar qəzeti

Dostlarınızın köməyi ilə İmamların (ə) birinin həyatı haqqında divar qəzeti hazırlayın və sinif otağınızdan asın.

## Tamamlayın

On iki İmamın (ə) adı aşağıdakı cədvəldə ərəb əlifbası ilə verilib. Onların adlarını tapın və ətrafına xətt çəkin. Qalan hərflərlə beş hərflik söz düzəlir. Aşağıdakı cümləni onunla tamamlayın.

Bizim İmamlar (ə) qarşısında vəzifəmiz ....... dir.

1. İmam Əli (ə)
2. İmam Həsən (ə)
3. İmam Hüseyn (ə)
4. İmam Səccad (ə)
5. İmam Baqir (ə)
6. İmam Sadiq (ə)
7. İmam Kazım (ə)
8. İmam Rza (ə)
9. İmam Cavad (ə)
10. İmam Hadi (ə)
11. İmam  Əskəri (ə)
12. İmam Mehdi (ə)

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| ح | ک | ا | هـ | ق | د | ا | ص | ★ |
| س | ا | م | ا | ط | ن | ی | س | ح |
| ن | ظ | هـ | د | ر | ق | ا | ب | س |
| ا | م | د | ی | ی | ل | ع | ر | ج |
| ت | ع | ی | د | ا | و | ج | ض | ا |
| ★ | ★ | ی | ر | ک | س | ع | ا | د |

Necə düşünürsünüz, bizim İmamlar (ə) qarşısında daha hansı vəzifələrimiz var?

Yeddinci dərs

# Qeybət dövrü

İllərdən bəri hamı bilirdi ki, həzrət Muhəmməd Peyğəmbərin (s) Əhli-beytinin nəslindən Mehdi adlı bir övlad dünyaya gələcək. Allahın Rəsulu on iki İmamın adını insanlara bəyan etdikdə onlara buyurdu: "Adı Mehdi olan sonuncu imam zalımlara qarşı mübarizə aparacaq və qəddar hakimiyyətləri sıradan çıxaracaq".

Bunu bilən Əhli-beyt düşmənləri İmam Həsən Əskərinin (ə) evini nəzarətdə saxlayırdılar ki, oğlan uşağı doğulduqda onu qətlə yetirsinlər. Lakin Allah həzrət Mehdini (ə) onların şərrindən qorudu.

Həzrət Mehdi (ə) Şaban ayının 15-də sübh çağı dünyaya gəldi. Hakimiyyət məmurlarının onun doğulmasından xəbəri olmadı. İmam Həsən Əskəri (ə) özünün yaxın dostlarından başqa kimsəni bu hadisədən xəbərdar etmədi.

İmam Əskəri (ə) şəhid olduqdan sonra İmam Mehdi Allahın əmri ilə insanlardan gizləndi və qeybə çəkildi. O, Allahın istədiyi zamanda və insanlar buna hazır olduqda qiyam edəcək, dünyanı yaxşılıq və ədalətlə dolduracaq.

***

Əvvəlki dərsdə öyrəndik ki, dini baxımdan vəzifəmiz məsum İmamlara (ə) itaət etməkdir. Hal-hazırda qeybət dövründə olduğumuzu nəzərə alaraq, bu vəzifəmizə necə əməl etməliyik?

İmam Mehdi (ə) qeybət dövründə insanlarla əlaqə saxlamaq üçün din alimlərindən dörd nəfər seçmişdi. Həmin dörd nəfərdən sonra həzrət hər hansı bir şəxsi xüsusi olaraq öz canişini və nümayəndəsi təyin etməsə də, hər bir dövrdə təqvalı və dini tanıyan alimləri öz canişini qərar vermişdir ki, insanlara dini və ictimai işlərdə yol göstərsinlər.

Hazırki dövrdə dini təqlid mərcələri İmam Zamanın (ə) canişinləri və nümayəndələri sayılırlar. Biz dini hökmləri öyrənmək üçün onlara müraciət etməli və onların göstərişlərinə əməl etməliyik. İslam cəmiyyətinin rəhbərliyi isə onlardan birinin öhdəsinədir və o "Vəliyyi-fəqih" adlanır. Vəliyyi-fəqih dini hökmləri və siyasi-ictimai şəraiti dərindən bilərək cəmiyyəti idarə edir.



Ayətullah əl-üzma Seyid Şəhabəddin Mərəşi Nəcəfi



Ayətullah əl-üzma Mirzə Məhəmmədhəsən Naini



Ayətullah əl-üzma Seyid Həsən Burucerdi

## Müzakirə edin

1. Əgər dini vəzifələri öyrənmək üçün təqlid mərcələrinə müraciət etməsək, hansı problemlər yaranacaq?
2. Sizcə, aşağıdakı cümlənin dərsin mövzusu ilə hansı rabitəsi var:

İmam Zaman (ə) buyurur: “Mən sizin hamınızı xatırlayıram!”

Səkkizinci dərs

# Həyat tərzi



Kiçikdən-böyüyə qarşılaşdığı hər kəsə birinci salam verərdi.

Daim gülərüz idi, lakin ucadan gülməzdi. İnsanların yanında otururdu və özünün xüsusi yeri yox idi. Xoşrəftar və gözəl əxlaqlı idi. O buyurardı: "Allah başqaları ilə qaşqabaqlı görüşənləri Öz düşməni sayır".

Onunla danışan hər kəsin sözünə sonacan qulaq asardı. Onun yanında hamı növbə ilə danışardı.

Qonağı gələndə hörmət əlaməti olaraq ayağa qalxar və qarşılamaq üçün bir-neçə addım ona tərəf irəliləyərdi.

***

Yuxarıda oxuduqlarınız həzrət Muhəmməd Peyğəmbərin (s) başqaları ilə münasibətdə əməl etdiyi əxlaq və ədəb qaydalarının bir hissəsi idi.

Nə yaxşı olardı biz də Peyğəmbərimizdən (s) örnək alaraq başqaları ilə danışığımızda və rəftarımızda daha gözəl davranmağa səy göstərək.

Başqaları ilə qarşılaşdıqda ədəb və əxlaq qaydalarına riayət edərək yerinə yetirdiyimiz rəftarlara "Davranış qaydaları" deyilir. Bu qaydalara riayət etmək bizim qarşımızdakı şəxsə hörmətimizi göstərir. Allah Quranda bizə belə tövsiyə edir:

وَقولوا لِلنّاسِ حُسْنًا

"... insanlarla xoş danışın ..."

(Bəqərə surəsi, 83-cü ayə.)

Dinimizdə başqaları ilə rəftar barəsində çoxlu qaydalar və göstərişlər vardır. Bu qaydalara əməl etmək insanlar arasında səmimiyyət və mehribanlığı artıra, bəzi narahatlıqların və düşmənçiliklərin qarşısını ala bilər. Burada bu qaydaların bir neçəsinə işarə edirik:

### 1. Başqaları ilə söhbət etdikdə sakit və aram olmaq

Başqaları ilə söhbət edəndə sakitcə danışaq, səsimizi yüksəltməyək və qışqırıb-bağırmayaq. Kimsə bizimlə danışanda gərək onun sözünü kəsməyək, səbirli olaq ki, qarşı tərəfin sözü bitdikdən sonra biz danışaq.

İslam Peyğəmbəri (s) bu barədə buyurur:

"Başqasının sözünü kəsən şəxs, sanki onun üzünə cırmaq atır".

### 2. Pıçıldaşmamaq

Ehtiyatlı olun, başqalarının yanında ətrafdakılarınızla pıçıltı ilə danışmayın. Belə ki, sizin onların barəsində danışdığınızı düşünüb narahat ola bilərlər. Allah Quran da bu barədə buyurur:

إِنَّمَا النَّجْوىٰ مِنَ الشَّيْطانِ

"Pıçıltı Şeytandandır".

(Mücadilə surəsi, 10-cu ayə)

### 3. Məsxərə etməkdən çəkinmək

Bəziləri əylənmək və başqalarını güldürmək məqsədilə dostlarını məsxərə edib onları pis adlar və ləqəblərlə çağırırlar. Onlar gülür, dostlarının isə qəlbi qırılır və kədərlənirlər.

### 4. Böyüklərə ehtiram

Bəyənilən işlərdən biri də böyüklərə ehtiram göstərməkdir, xüsusilə yaşlılara və qocalara. Sevimli peyğəmbərimiz həzrət Muhəmməd (s) bu barədə buyurur:

"Yaşlılara ehtiram Allaha ehtiramdır".

## Düşün və söylə

1. Ailədə və cəmiyyətdə yaşlılara ehtiram nümunələrini bəyan edin.
2. Ailədə və qohumlar arasında riayət olunmalı daha hansı davranış qaydalarını bilirsiniz?

## Müzakirə edin

Davranış qaydalarına riayət etməyin bizim həyatımızda hansı faydası var?

## Ailə ilə birlikdə

Ailənizin köməyi ilə "Hücurat" surəsinin 11-ci ayəsinin tərcüməsinə baxın. Nə üçün Allah bizə başqalarını məsxərə etməyi qadağan edib?

Doqquzuncu dərs

# Sağlamlıq yolu



Çoban sürüdən uzaqlaşmış qoyunun ayaqlarından tutub çiyninə aldı və sürüyə tərəf hərəkət etdi. Hələ sürüyə çatmamış səhradan keçən şəxsin mehriban üzü onun diqqətini çəkdi. Ona tərəf getdi. Bu - Allahın peyğəmbəri idi. Qoyunu sakitcə çiynindən yerə qoyub Peyğəmbərə dedi: "Gördün ki, bu qoyunu necə rahat tutdum və gətirdim. Mən çox güclüyəm və heç kəs güləşdə mənim belimi yerə vura bilməyib. Mənimlə güləşmək istəyirsənmi? Məni yerə yıxa bilsən, bu qoyunu sənə hədiyyə edəcəm."

Peyğəmbər gülümsəyərək bu təklifi qəbul etdi. Güləş təzəcə başlamışdı ki, çoban özünü yerdə gördü. İnana bilmirdi! Peyğəmbərdən bir daha onunla güləşməsini istədi, əmin idi ki, bu dəfə hökmən qalib gələcək. Lakin bu dəfə birinci dəfədən daha tez yerə sərildi. Mat-məəttəl qalmışdı! Sözünə əməl edib qoyunu Peyğəmbərə hədiyyə etdi. Peyğəmbər ona təşəkkür edib qoyunu özünə qaytardı...

***

Bizim din rəhbərlərimiz öz sağlamlığına diqqət yetirirdi və insanlara öz dövrünün idman növlərilə, məsələn ox atmaq, at sürmək, hətta güləşlə məşğul olmağı tövsiyə edirdilər. Onlar bəzən at sürmək və ox atmaq yarışlarında iştirak edib qaliblərə mükafat verirdilər.



## Müzakirə edin

Siz öz sağlamlığınızı qorumaq üçün nə edirsiniz?

Sağlamlığı qorumaq üçün idmanla yanaşı düzgün qidalanmaq və yetərincə yatmaq da lazımdır, yəni səhər, nahar və şam yeməklərini tam və vaxtında yemək, axşamlar tez yatmaq lazımdır ki, səhər tezdən gümrah oyanaq və günü təravətlə başlayaq. Bunların hər birinə diqqətsiz yanaşmaq bədənimizin zəifləməsinə və müxtəlif xəstəliklərə qarşı müqavimət gücümüzün aşağı düşməsinə səbəb olur. Dinimizdə zəiflik, bacarıqsızlıq, süstlük və tənbəllik pislənilib və müsəlmanlara tövsiyə olunub ki, bacarıqlarını artırsınlar. Sevimli peyğəmbərimiz həzrət Muhəmməd (s) buyurur:

"Güclü mömin zəif mömindən yaxşıdır".

Aydındır ki, idmanı və əyləncəni gündəlik proqramına daxil edən şəxs dini vəzifələrini və dərslərini yerinə yetirməkdə daha çox uğur qazanacaq.

## Sağlamlığın şükrü

Bədən Allahın bizə bəxş etdiyi nemətdir və onun sağlamlığını qorumaq bizim vəzifəmizdir. Belə ki, hər hansı bir nemətə malik olan şəxsin həmin nemət qarşısında müəyyən vəzifələri vardır. Sizcə, üzərimizə düşən vəzifəni və sağlamlığızın şükrünü necə yerinə yetirməliyik?

Bu öhdəliklərdən biri cəmiyyətin zəif və gücsüz insanlarına kömək etməkdir. Sədi bu barədə deyir:

Qüvvətli qolun şükrü bil ki,
Zəifin əlindən yapışmaqdadır

Nə yaxşı olar ki, öz cismimizin bacarıqlarını düzgün yolda istifadə edək və həzrət Əli (ə) kimi Allahdan belə istəyək:

قَوِّ عَلىٰ خِدْمَتِكَ جَوارِحى

"İlahi, bədən üzvlərimə Sənin yolunda xidmət etmək üçün güc ver!"

## Düşün və söylə

Necə düşünürsüz, idman etmək bədənin sağlamlığından başqa daha hansı faydalara malikdir?

## Tamamlayın

Bu hədisi tamamlayın:

Allahın Rəsulu (s) buyurub:
"İnsanlar iki nemətin dəyərini bilməzlər: ......................
və əmin-amanlıq".

## Müzakirə edin

1 Sağlamlığın şükrünü yerinə yetirmək üçün daha hansı yolları tanıyırsınız?

1. Dostunuz xəstələnəndə ............................................ .
2. Yeməkyeyərkən ........................................................ .
3. ........................................................................................ .
4. ........................................................................................ .

Onuncu dərs

# Böyük mükafat

Bayram günləridir. Həmid və Məryəm ata-anaları ilə birlikdə babalarının evinə gəldilər.

Salamlaşdıqdan və hal-əhval tutduqdan sonra böyüklər söhbət etməyə, uşaqlar isə oynamağa başladılar.

Qapının zəngi çalındı. Əhməd əmi və ailəsi gəlmişdi. Həmidin anası çadrasını başına keçirib qonaqları qarşılamağa getdi.

Yavaş-yavaş babagilin evi adamlarla



doldu. Gülüş və şadlıq sədaları evi bürümüşdü. Süfrə açılanda hamı onun kənarında oturdu. Nənənin yeməyi çox dadlı idi, dadı hər kəsin damağında qaldı! Nahardan sonra baba hamıya bayramlıq verdi və sonra dedi: - Uşaqlardan kim yaxşı iş görübsə, deyin, onlara hədiyyə verəcəyəm.

Əhməd Əmi dedi: - Əli həmişə doğru danışır, hətta onun zərərinə olsa.

Məryəmin atası dedi: - Məryəm yetkinlik yaşına çatandan bəri çalışır ki, naməhrəm onun saçlarını görməsin.

Həmid dərhal dedi: - Bəyəm burada nənə üçün naməhrəm yoxdur, axı onun saçları görünür?!

Hamı onun bu sualına gülüşdü.



Lakin baba dedi: - Yaxşı sual verdin, indi isə yaxşı qulaq as, sənə izah edim.

Mehriban Allah bizim üçün bu dünyada müəyyən hökmlər və qanunlar təyin etmişdir və onlara riayət etmək bizim xeyrimizədir. Bunlardan biri də məhrəm və naməhrəm hökmləridir ki, hamı yetkinlik yaşına və həddi-büluğa çatdıqdan sonra onlara əməl etməlidir. Kişilər naməhrəm qadınlara göz dikməməli, qadınlar da hicab taxmadan naməhrəm kişilərə görünməməlidirlər.

Həmid soruşdu: - Kimlər bizə məhrəm və kimlər naməhrəmdir?

Baba dedi: - Bir ailənin üzvlərinin hamısı bir-birinə məhrəmdir: ata, ana, bacı, qardaş, eləcə də baba və nənə. Sizin qardaşınızın və bacınızın uşaqları da sizə məhrəmdir, lakin qardaşın arvadı və bacının əri sizə naməhrəmdir.

Qohumlardan da əmi, bibi, dayı və xala da sizə məhrəmdirlər, lakin onların həyat yoldaşları və uşaqları sizə naməhrəmdir.

Doğrudur, başqa şəxslər də sizə məhrəm və ya naməhrəmdirlər ki, böyüyəndə sizə bu barədə sizi məlumatlandıracam.

Sonra baba üzünü Məryəmə tutub dedi: - Namaz kimi hicab da dinin vacibatlarından biridir və ona riayət etmək insanı Cənnətə aparır. Siz qızlar saçınızı və bütün bədəninizi naməhrəmdən örtməlisiniz, lakin üzü və əlləri biləyə qədər örtmək lazım deyil. Həmçinin naməhrəmin diqqətini cəlb edəcək hər növ paltarı geyinmək haramdır. Bu həm kişilərə, həm də qadınlara aiddir. Eləcə də Allah imanlı kişilərdən və qadınlardan istəyir ki, gözlərini naməhrəmə baxmaqdan qorusunlar və günaha batmasınlar".

قُلْ لِلْمُؤْمِنِينَ يَغُضُّوا مِنْ أَبْصارِهِمْ... وَ قُلْ لِلْمُؤْمِناتِ يَغْضُضْنَ مِنْ أَبْصارِهِنَّ

"Mömin kişilərə de ki, (harama baxmayıb) gözlərini aşağı diksinlər...
Mömin qadınlara da de ki, (harama baxmayıb) gözlərini aşağı diksinlər..."
(Nur surəsi, 30-31-ci ayələr)

Bu söhbətdən sonra baba uşaqlara hədiyyə verib dedi: - Əgər ehtiyatlı olsanız və bu yaxşı işlərinizi davam etdirsəniz, Allahın böyük mükafatı sizə nəsib olacaq!

## Tamamlayın

Aşağıdakı cədvəldə kimlər Məryəmə və Həmidə məhrəm, kimlər isə naməhrəmdirlər? Boş xanalarda yazın:

Məryəmə nisbətdə:

| dayı | əmioğlu | bacının əri | əmi | xalaoğlu | qardaşoğlu | bibinin əri |
|---|---|---|---|---|---|---|
| | | | | | | |

Həmidə nisbətdə:

| bibiqızı | xala | dayıqızı | bacıqızı | əminin arvadı | qardaşqızı | qardaşın arvadı |
|---|---|---|---|---|---|---|
| | | | | | | |

## Düşün və söylə

Sara yenicə yetkinlik yaşına çatıb. Doğru və yanlış halları ayırmaqla ona kömək edin ki, öz hökmlərini düzgün öyrənsin:

- O, corabsız bibisinin ərinin evinə gedir.
- Əmisi onların evinə gəlib və o, baş örtüksüz onun üçün çay gətirir.
- Naməhrəmin qarşısında dəstəmaz alır.

## Müzakirə edin

Məhrəm və naməhrəm hökmlərinə riayət etməyin və münasib tərzdə geyinməyin hansı faydaları var?

On birinci dərs

# Səfərin hökmləri

قُلْ سيروا فِى الْاَرْضِ

"De: Yer üzünü dolaşın..."

(Ənam surəsi, 11-ci ayə)

İndiyədək səfərə çıxmısınızmı?

Qohumları və tanışları görmək, ziyarət etmək, əyləncə və ya qəzinti məqsədilə səfər etmisinizmi?

Sizcə, bu səfərlərin bizim üçün hansı faydaları vardır?

Həzrət Muhəmməd Peyğəmbər (s) buyurur:

"Səfər edin ki, sağlam qalasınız".

***

Ötən illərdə namaz və orucun hökmləri ilə tanış olduq. Mehriban Allah səfər zamanı namazı və orucu bizim üçün asanlaşdırıb.



## Müsafir namazı

Müsafir, - yəni səfərə çıxan şəxs, - dörd rəkətli zöhr, əsr və işa namazlarını iki rəkət qılmalıdır. Buna namazın "Qəsr" qılınması deyilir. Düzdür, səfərin müəyyən şərtləri var ki, yalnız bu şərtlər olduğu təqdirdə namaz qəsr qılınır.



Əgər kimsə yaşadığı yerdən 22 km-dən uzaq olan bir yerə getsə, namazını qəsr qılmalıdır. Bu, həmin yerdə on gündən az qalmaq istədikdə icra olunur. Lakin əgər həmin məkanda on gün və ya daha artıq qalacağını bilsə, daha namazı qəsr deyil və ilk gündən namazını bütöv qılmalıdır.

## Müsafir orucu

Ramazan ayında səfərə çıxanlar bu haqda olan hökmləri bilməlidirlər:

- Dörd rəkətli namazları qəsr qılan müsafir oruc tutmamalıdır. Səfərdə namazını bütöv qılan şəxs səfərdə oruc da tutmalıdır.
- Əgər oruc tutan şəxs zöhr azanından sonra səfərə çıxsa, orucu qüvvədədir. Əgər zöhr azanından əvvəl səfərini başlasa, orucu batildir.
- Əgər müsafir zöhr azanından sonra yaşadığı yerə gəlib çatsa, həmin gün oruc tuta bilməz.
- Zöhrdən əvvəl yaşadığı yerə çatan müsafir orucu batil edən şeyləri etməyibsə, həmin gün oruc tutmalıdır.
- Səfərdə olduğuna görə oruc tuta bilməyən şəxs Ramazan ayından sonra həmin günlərin qəzasını yerinə yetirməlidir, yəni tutmadığı günlər qədər oruc tutmalıdır.

### Daha çox öyrənək

Səfər etdikdə elə məkanlar var ki, on gündən az qalsaq belə namazımızı bütöv qıla bilərik:

1. Məkkədə Məscidul-həram.
2. Mədinədə Məscidun-Nəbi
3. Kufə məscidi
4. İmam Hüseynin (ə) qəbrinin yanı.

### Müzakirə edin

Səidin ailəsi Bakıda yaşayır.
Aşağıdakı hallarda Səidin namazı qəsrdir, ya bütöv?

- O, ata-anası ilə birlikdə Gəncə şəhərinə İmamzadəni ziyarət etməyə gedib və orada yeddi gün qalmaq istəyirlər.
- Ailəsi ilə birlikdə şəhərdən 5 km uzağa əylənmək üçün gedib.
- Nənəsini görmək üçün Masallıya gediblər və orada 2 həftə qalmaq istəyirlər.

### Düşün və söylə

Hansı müsafir Ramazan ayında oruc tuta bilməz?

## On ikinci dərs

# Müsəlmanların bayramı

Uca Allahın iki böyük peyğəmbəri - həzrət İbrahim (ə) və Həzrət İsmail (ə) Məkkədə Allahın evini yenidən tikib onu Allahpərəstlər üçün hazırlamaq barədə əmr almışdılar. Həzrət İbrahimdən sonra Məkkə müşrikləri öz bütlərini Kəbə evinə yerləşdirdilər və təvaf zamanı onların qarşısında təzim edirdilər.

Həzrət Muhəmməd (s) peyğəmbərliyə çatanda Allah ona əmr etdi ki, Kəbə evini bütlərdən təmizləsin və onu yalnız Allahpərəstlərin ibadəti üçün hazırlasın.

Hər il dünyanın bütün yerlərindən çoxlu sayda müsəlman Allahın evini ziyarət etmək üçün Məkkəyə gəlir. Onlar Məkkəyə daxil olmazdan əvvəl ehram paltarı geyinir və hamı eyni libasda Məscidul-hərama daxil olur.

Bunu ardından Allahın evinin ətrafında yeddi dəfə təvaf edir, sonra iki rəkət namaz qılıb Səfa və Mərvə dağları arasındakı məsafəni yeddi dəfə qət edirlər.



Həcc mərasimini yerinə yetirmək üçün Məkkəyə gedənlər Qurban bayramı günü Allahın əmri ilə bir qoyun kəsir. Həmçinin, Məkkədə yaşamayan xeyirxah insanlar da öz məmləkətlərində qurbanlıq kəsib ətini yoxsullar arasında paylayırlar.

***

Ramazan ayının sonunda da Fitr və ya Ramazan bayramı qeyd olunur. Müsəlmanlar həmin gün zəkat olaraq yoxsullara və ehtiyaclılara bir miqdar pul verirlər. Qeyd etdiyimiz kimi, Qurban bayramında da qurbanlıq ət yoxsullara və ehtiyaclılara verilir. Buna görə də biz müsəlmanların bayramı yoxsulların da sevindiyi bir gündür.

Fitr və Qurban bayramı günlərində qüsul alır, ən gözəl paltarlarımızı geyinir və iki rəkət bayram namazı qılırıq.

## Düşün və söylə

Dərsdə oxuduqlarımızı nəzərə alaraq, həcc mərasiminin hansı faydaları vardır?

## Müzakirə edin

Biz müsəlmanların bayramı hansı mühüm xüsusiyyətlərə malikdir?

## Xatirə danışmaq

Fitr bayramı namazı mərasimində iştirakınızla bağlı bir xatirəni sinifdəki dostlarınıza danışın.

## Ailə ilə birlikdə

Həccə getmiş tanışlarınızın biri ilə söhbət edin və onun şirin xatirələrini sinifdə danışın.

On üçüncü dərs

# Uğur sirri

Məktəbin həyətində durmuşdum, birdən gözüm özündən böyük toxumu ağzına alıb divarda üzüyuxarı hərəkət edən qarışqaya sataşdı. Yarı yolda toxum qarışqanın ağzından yerə düşdü, lakin o, yenə səy göstərdi. Dəfələrlə yerə düşüb qalxdıqdan sonra, nəhayət divarın yuxarı hissəsinə çıxıb yükünü mənzilə çatdıra bildi.

Öz-özümə dedim: "Mənim nəyim bu qarışqadan əskikdir? Çalışıb növbəti imtahanlarda uğur qazanmalıyam". Anladım ki, davamlı çalışmaqla uğur qazanmaq olar.

Zəhmətsiz xəzinə əldə edilməz,
Candan işləməyən muzd əldə etməz!

Sədi

***

Səy göstərmək, çalışmaq insana öz məqsədlərinə və arzularına çatmaqda kömək edən amillərdir. Səbəbi də budur ki, "axtaran tapar" və bir şeyi əldə etmək üçün çalışan şəxs səy göstərdiyi qədər ona nail olacaq. Uca Allah Quranda buyurur:

وَ اَنْ لَيْسَ لِلْاِنْسانِ اِلّا ما سَعى

"Və insan üçün etdiyi səy və təlaşdan başqa bir şey yoxdur".

(Nəcm surəsi, 39-cu ayə)

Sizcə, uğur əldə etmək üçün çalışmaq kifayətdirmi?

Çalışmağın əhəmiyyəti çox olsa da, yalnız nizamlı və planlı olanda uğurla nəticələnir. Belə ki, əvvəlcə məqsədə çatmaq üçün yerinə yetirilməli olan fəaliyyətləri ayırd edək, sonra hər bir işi zamanında və tərtiblə yerinə yetirək. Həzrət Əli (ə) müsəlmanlara öz işlərində nizamlı olmağı tövsiyə edib və buyurub:

اوصيكُمْ وَ نَظْمِ اَمْرِكُمْ

"Sizə işlərinizdə nizamlı olmağı tövsiyə edirəm."

(Nəhcül-bəlağə, 47-ci məktub.)

## Düşün və söylə

Biz insanlar qarışqaların həyatından daha hansı ibrətlər ala bilərik?

## Müzakirə edin

Necə düşünürsüz daha hansı amillər uğur qazanmağa səbəb olur?



## Araşdırın

Müsəlman alimlərin uğur sirlərini araşdırın və nəticəni sinifdə açıqlayın.

On dördüncü dərs

# Ziyarət

Göyərçinlər hərəmin ətrafında uçuşurdu, bəzən də ziyarətgahın ortasındakı hovuzun kənarlarında otururdular.

Uşaqlar həyətdə sərilən xalçaların üstündə oturub maraqla günbəzə və minarələrə baxırdılar. Zəhra dedi: - Həzrət Məsumənin ziyarətgahı necə də gözəldir!

Leyla müəllimdən soruşdu: - Biz kimin ziyarətinə gəlmişik? Həzrət Məsumə kimdir?

Müəllim üzünü uşaqlara tutub dedi: - Leyla yaxşı sual verdi. İnsan bir nəfərin ziyarətinə getdikdə onun barəsində məlumatlı olmalıdır.





Həzrət Məsumə (ə) yeddinci imamın qızı və öz dövrünün bilikli təqvalı xanımlarından biri idi. O, atası və qardaşı tərəfindən gözəl tərbiyə alaraq gənc yaşlarında dinin hökmlərinin və təlimlərinin bir çoxuna yiyələndi. Onun adı Fatimədir, lakin pis işlərdən və günahlardan uzaq olduğu üçün "Məsumə" (pisliklərdən və günahlardan pak olan) ləqəbi ilə tanındı.

Zeynəb maraqla soruşdu: - Bəs nə üçün həzrət Məsumə Qum şəhərinə gəldi?

Bu sualı gözləyən müəllim dedi: - O, qardaşını görmək üçün Mədinədən Xorasana tərəf yola düşdü. Lakin bu uzun və çətin yolda xəstələnib Qum şəhərində dünyasını dəyişdi.

Allah onu ziyarət edənlərə Cənnətdə mükafat verər.

Uşaqlar! İndi isə ehtiramla ziyarətgaha daxil oluruq, ziyarətnamə oxuyuruq, sonra da özümüz və başqaları üçün dua edirik.

***

Müəllim ziyarətdən sonra namaz qıldı. Bu zaman Reyhanə təəccüblə soruşdu: - Bəyəm namazın vaxtıdırmı?

Müəllim dedi: - Ziyarət namazı qılırdım. İmamın və ya imamzadənin ziyarətinə getdikdə yaxşı olar ki, iki rəkət ziyarət namazı qılaq və savabını onlara hədiyyə edək.

Səmanə dedi: - Bizi bura gətirdiyiniz üçün çox sağ olun! Biz çox şey öyrəndik. Atamdan eşitmişəm ki, İmam Kazimin (ə) övladlarından birinin qəbri də Şiraz şəhərində yerləşir. Çox istərdim ki, onu da ziyarət edim!

Müəllim dedi: - Düzdür, onun adı Əhməddir, "Şahçıraq" adı ilə tanınır. Bilikli, səxavətli, şücaətli və təqvalı bir şəxs idi. O da qardaşını görmək üçün Mədinədən yola düşdü və gəlib Şiraza çıxdı. İmam Rzanın (ə) düşmənlərindən olan Şiraz hakiminin ona və dostlarına

hücum etməsi nəticəsində hamısı şəhadətə yetişdi.

Bu zaman Zəhra dedi: - Keçən il oxumuşdum ki, imam övladlarından birinin qəbri də Rey şəhərindədir.

Müəllim dedi: - Düzdür! "Mən inanıram" dərsində onun barəsində bir az məlumatlandırılmışdınız. Bu, İmam Həsən Müctabanın (ə) nəvələrindən olan həzrət Əbdüləzim Həsənidir.

Həzrət Əbdüləzim İmam Rzanın (ə), İmam Cavadın (ə) və İmam Hadinin (ə) şagirdlərindən və səhabələrindən olmuşdur. O dövrün hakimləri imamları və onların şagirdlərini incidirdilər. Həzrət Əbdüləzim xilas olmaq üçün Rey şəhərində məskunlaşıb gizli yaşamağa başladı. Sonda xəstələnib elə buradaca dünyasını dəyişdi.

## Düşün və söylə

Həzrət Məsumənin (ə) ziyarətnaməsinin bir hissəsində oxuyuruq:
"Salam olsun sənə ey imamın övladı! Salam olsun sənə ey imamın bacısı! Salam olsun sənə ey imamın bibisi!"
Siz bu üç imamın adını bilirsinizmi?

## Müzakirə edin

Sizcə, bizə nə üçün din rəhbərlərinin qəbirlərini ziyarət etmək tövsiyə olunub?

## Xatirə danışmaq

Bu üç imamzadənin hər hansı birinin ziyarətinə getmisinizsə, bu barədə olan xatirələrinizi sinifdə danışın.

## Araşdırın

Bu dəsrdə tanış olduğunuz üç imamzadə haqqında araşdırma aparın və sinifdə dostlarınız üçün oxuyun.



## On beşinci dərs

# Nümunəvi şagird

Uşaqlar həyəcanla öz qruplarında dərsin mövzusu haqqında danışırdılar. Müəllim bütün qruplara vaxt vermişdi ki, birlikdə fikirləşərək nümunəvi şagirdin xüsusiyyətlərini bəyan etsinlər.

Vaxt tamamlananda müəllim birinci qrupun nümayəndəsindən qrup üzvlərinin fikirlərini digər şagirdlər üçün açıqlamasını istədi.



Məryəm ayağa qalxdı və müəllimdən icazə alıb danışmağa başladı: "Bizim fikrimizcə, nümunəvi şagird yaranan fürsətlərdən səmərəli istifadə edər.
Öz işlərini əhəmiyyət dərəcəsinə görə planlaşdırar və məktəb tapşırıqlarını yerinə yetirdikdən sonra yalnız onun üçün faydalı olan televiziya proqramlarını izləyər".
Müəllim üzünü uşaqlara tutub dedi: "Bu qrup yaxşı məqama toxundu. Əgər siz böyük şəxsiyyətlərin və alimlərin həyatını oxusanız, görərsiniz ki, onlar yeniyetmə və gənclik dövründə vaxtdan səmərəli istifadə ediblər. Onlar həm elm və mütaliə ilə məşğul olurdu, həm də istirahətlərinə zaman ayırırdılar".

Həzrət Əli (ə) buyurur:
"Fürsətlər buludlar kimi (sürətlə) keçib gedir.
Fürsətlərdən səmərəli istifadə edin!"

Birinci qrupdan sonra müəllim bizim qrupdan soruşdu: - Siz necə düşünürsünüz?
Mən əlimi qaldırıb dostlarımın fikirlərini yazdığım vərəqi oxudum: "Nümunəvi şagird öz müəlliminə ehtiram göstərər və müəllim sinifə gəlməmişdən əvvəl sinifdə olar. Dərs vaxtı başqalarının diqqətini yayındırmamaq üçün dostları ilə danışmaz. Dərsi yaxşı öyrənmək üçün suallarını vaxtında və müəllimin icazəsi ilə verər.

İmam Səccad (ə) buyurur:
"Sənə elm öyrədənin haqqı budur ki, onun hörmətini saxlayasan. Onun yanında başqaları ilə danışmayasan və sözlərinə diqqətlə qulaq asasan".

Növbə üçüncü qrupa çatdı. Qrup nümayəndəsi olan Reyhanə ayağa qalxıb dedi: "Yaxşı şagird odur ki, başqa şagirdlərlə mehriban

olsun. Məsələn, əgər kimsə dəsrdə zəifdirsə, ona kömək etsin və aşağı sinif şagirdlərinin qayğısına qalsın".

Reyhanə davam etdi: "Nümunəvi şagird odur ki, çanta, qələm və dəftər kimi ləvazimatlarından səmərəli istifadə etsin və səbəbsiz yerə onları kənara atmasın. Belə ki, belə bir davranış israf hesab olunur, və Allah israf edənləri sevmir."

Yalnız bir qrup qalmışdı. Süməyyə sonuncu qrup nümayəndəsi qismində ayağa qalxıb dedi: "Bizim nəzərimizcə, nümunəvi şagird başqalarının haqqını tapdamaz və saxtakarlıq kimi işlərdən uzaq olar. Çünki bilir ki, saxtakarlıq nəticəsində zəhmət çəkən şagirdlərin haqqı pozulur".

Bütün qruplar fikirlərini bildirdikdən sonra müəllimə dedi: "Afərin sizə! Hamınız gözəl və düzgün fikirlər bildirdiniz. İndi isə hər bir qrupun nümayəndəsi dediklərini yazı taxtasında yazsın.

Qalan şagirdlər isə bunu öz dəftərlərinə köçürüb qeyd olunan xüsusiyyətlərdən hansına malik olduğu üzərində düşünsün?

Nə yaxşı olar ki, sahib olmadığımız xüsusiyyətləri özümüzdə yaratmağa çalışaq. Mən əminəm ki, sizin hamınız çalışmaqla uğurlu və nümunəvi bir şagird ola bilərsiniz!"

## Düşün və söylə

İmam Səccadın (ə) kəlamını nəzərə alaraq, müəllimin ehtiramını saxlamaq üçün daha nəyə riayət etmək lazımdır?

## Müzakirə edin

Nümunəvi bir şagird dərsdə qeyd olunmayan daha hansı xüsusiyyətlərə malikdir?

## Tamamlayın

Fürsətlərdən doğru istifadə etməyin nəticələri

1. ...................................

2. ...................................

3. ...................................

Fürsətlərdən doğru istifadə etməməyin nəticələri

1. ...................................

2. ...................................

3. ...................................

Hörmətli müəllimlər, valideynlər və şagirdlər!

**Biz sizin rəylərinizi qiymətləndirir və onlardan gələcək kitablarımızdakı dəyişikliklər və təkmilləşdirmələr etmək üçün istifadə edəcəyik. Zəhmət olmasa rəylərinizi aşağıdakı e-poçt ünvanına göndərin:**

**info.amag77@gmail.com**